**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Dövlətçilik tariximiz

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

**№ 22 (1390) 2 fevral - 3 fevral 2017-ci il**

# Xürrəmilər hərəkatı

(Əvvəli ötən sayımızda)

**Xürrəmilər hərəkatı Qərb alimlərinin də diqqətini cəlb etmişdir. Qərb şərqşünasları arasında elə tədqiqatçılar var ki, onlar Azərbaycan xürrəmilərinin hərəkatını elmi surətdə təhlil etmədən Babəkin fəaliyyətinə subyektiv surətdə heyran olurlar. Bu halda həmin tarixi hadisənin elmi təhlili deyil, yalnız ona verilən qiymət yaxın olur və Babəkin bütün əzəmətini dərk etməyə kömək edir.**

Bernard Lüis Babəki "bidətçi" hesab etsə də, göstərir ki, o "böyük hərbi və siyasi istedada malik bir adam" olmuşdur. R.Dozi Babəki "cəsur mübariz" adlandırır. Lakin Babəkə layiq olduğu qiyməti verən qərb tədqiqatçıları azdır. Həmçinin, bir qism qərb tədqiqatçıları Xürrəmilərin əxlaq və yaşam tərzi ilə bağlı ərəb və fars mənbələrinin böhtan və iftira xarakterli məlumatlarını təhlil edib dərindən araşdırmadan, sırf mənbə məlumatı kimi, həqiqət zənn edərək əsərlərində qeyd etmişlər. Edvin Rayt xürrəmiləri tənqid edənlər tərəfindən xürrəmilərin içki içməsi, cinsi münasibətlərdə sərbəstliyə meydan verməsi hallarının lağa qoyulduğu və nifrətlə qeyd olunduğunu bildirir , bununla da olayısı ilə həmin mənbə məlumatlarına ciddi yanaşdığını göstərir.

U.Myuir bir sıra ərəb və fars tarix yazarlarının mülahizələrinin təsirilə, Xürrəmilər hərəkatının ismini onların sərbəstlik və gözəl olan hər şeydən həzz almaq düşüncəsinə sahib olmaları ilə əlaqələndirir . Y.Velhauzen isə bildirir ki, "deyilənə görə, Məzdəkin təbliğ etdiyi "arvad kommunizmi" ("qadınların ictimailəşdirilməsi") düşüncəsi Xürrəmilər və Ravəndilər tərəfindən canlandırılmışdır". Göründüyü kimi, bəzi qərb tarixçiləri xürrəmilər hərəkatı ilə bağlı ərəb-fars mənbələrindəki iftira xarakterli məlumatları həddindən artıq ciddiyə almış və yanlış nəticələr hasil etmişlər. Buna görə də babəki-xürrəmilər hərəkatı haqqında şərqşünasların əksəriyyəti tərəfindən elmi ədəbiyyatda yaradılmış yanlış təsəvvür hələlik üstünlük təşkil edir.

**"Tariximizin öyrənilməsi, təbliği çox vacib və zəruridir. Biz bununla özümüzü həm dünyaya tanıdır, həm də gənc nəslin vətənpərvərlik ruhunda böyüməsinə şərait yaratmış oluruq".**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

### *Hərəkatın başlaması və gedişi*

Xürrəmilər hərəkatını şərti olaraq üç mərhələyə ayırmaq olar: birinci mərhələ xürrəmilərəqədərki dövrü, ikinci mərhələ isə Babəkəqədərki dövrü əhatə edir. İkinci mərhələ isə Babəkin xürrəmilər hərəkatına başçılıq etdiyi dövrdür. Birinci mərhələdə Azərbaycanın bir sıra bölgələrində Xilafətə qarşı üsyanlar geniş vüsət alır. 748-752-ci illərdə Beyləqan, Bərdə və Ərdəbildə baş verən üsyanlar daha irimiqyaslı olur. Xalq hərəkatı bütün Azərbaycanı bürüyür. Müsafirin başçılıq etdiyi bu üsyanı ərəblər çox çətinliklə yatıra bilirlər. İkinci mərhələdə xürrəmilərin Babəkin hərakata rəhbərlik etməsinə qədər Xilafətə qarşı bir sıra üsyanları baş verir. Onlardan ikisi daha təhlükəli və geniş miqyaslı olmaqla Xilafətdə bir təşviş hissi yaradır. 778-ci ildə baş vermiş üsyan tezliklə yatırılır. 808-ci ildə iştirakçılarının sayı 100 minə çatmış ikinci bir üsyan olur. Xəlifənin göndərdiyi güclü qoşun bu üsyanı çox çətinliklə yatırmağa müvəffəq olur. Üsyan iştirakçılarına amansız divan tutulsa da, xürrəmilərin mübarizə əzmini qırmaq mümkün olmur. Hərəkatın bu dövründə xürrəmilərə başçılıq edən Cavidanla Əbu İmran arasındakı kəskin mübarizə, ümumi düşmənə qarşı yox, bir-birlərinə yönələn nifrət onun gücünü azaldır, ərəb ağalığına şərait yaradır. Bəzz qalasının sahibi Cavidan həm də xürrəmi icmasının başçısı idi. Xürrəmi rəhbərləri bir-biri ilə çəkişir, bu çəkişmələrin zərbəsi yenə də xalqa, onun azadlıq hərəkatına dəyir. Döyüşlərin birində Əbu İmranı öldürən Cavidanın özü də aldığı yaralardan vəfat edir. Xürrəmilər isə başsız qalmır. Tarix bu dövr üçün öz qəhrəmanını yetişdirir. Hərəkata rəhbərlik sərkərdəlik məharəti, dəyanəti və cəsurluğu ilə bütün Xilafəti lərzəyə salacaq Babəkə keçir. Babək Azərbaycan tarixinin ən parlaq şəxsiyyətlərindən biridir. 798-ci ildə Ərdəbil yaxınlığındakı Bilalabad kəndində anadan olub. Ərəb mənbələrrində əsil adının Həsən olduğu deyilir. Lakin, bir çox təqdiqatçılar öz məqalələrində qeyd edirlər ki, bu ad ərəb tarixçiləri tərəfindən təhrif olunub, ən yaxşı halda ərəb dilinə uyğunlaşdırılıb. Güman etmək olar ki, onun ilk adı Əsən (və ya Əhsən) olub. Bu sözə Kitabi Dədə Qorqud eposunda da çox rast gəlinir . Görkəmli tarixçi akademik Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" adlı əsərində dövrün tarixçilərinə istinadən yazır: " Ərəblər yerli əhalini sürətlə müsəlmanlaşdırmaq üçün islamı, ərəb dili və digər adət-ənənələrini qəbul etməyənlərin üzərinə olduqca ağır vergilər qoyurdular. Bu vergidən can qurtarmaq üçün əksər adamlar üzdə özlərini bu şərtləri qəbul edən kimi göstərir, hətta özlərinə ərəb adları götürməyə məcbur olurdular". Bu fikir Babəkin əsl adı, onun ailəsi ilə bağlı olan hekayələrin uydurma ola biləcəyini doğrulayır. Akademik Ziya Bünyadov "Babək Xürrəmi bütün ömrü boyu xilafətə qarşı vuruşaraq, Azərbaycanda islama qədərki dövrdə mövcud olmuş, bu və ya digər şəkildə zərdüştlük və məzdəkiliklə bağlı qayda-qanunların bərpasına can atmışdı" .Babəkin Bizans imperatoruna yazdığı məktublar da aydın olur ki, Babək ərəb istilasına qarşı döyüşməklə bərabər gələcəkdə zərdüştlük, məzdəkilik ideyalarını özündə ehtiva edən yeni bir din yaradmaq fikrinə düşübmüş.

Xürrəmilər hərəkatına rəhbərliyə keçən Babək 816-cı ildən 837-ci ilə qədər ərəb istilasına qarşı inadlı müqavimətin başında durur. Xalqın böyük əksəriyyətini azadlıq uğurnda mübarizəyə cəlb edən Babək xürrəmilər arasındakı hərcmərcliyə son qoyur, xürrəmi qoşunlarında ciddi nizam-intizam yaradır. Cavidanın ölümündən sonra xəlifə bir qədər araxaynlaşır, xürrəmilərə qarşı ordu göndərmir. Babəkin nəyə qadir olduğunu bilməyən xəlifə xürrəmilərə qarşı Azərbaycandakı ərəb hərbi qüvvələrdən istifadə edir. Ancaq müharibənin geniş vüstə aldığını, Xilafət üçün Babəkin qorxulu qüvvəyə çevrildiyini görüb səhv etdiyini anlayır.

819-cu ildə xürrəmilərə qarşı ilk nizami ordu göndərsə də üsyançılar bu ordunu darmadağın edir. Bununla da düz on il müddətində xürrəmilər Xilafəti bir neçə nizami ordusunu məğlubiyyətə uğradılar.

Hərəkatdan, onun rəhbərliynin döyüş bacarıqlarından, sərkərdəlik məharətindən lərzəyə düşən Xilafət Babəkə qarşı həlledici savaşa başlayır. 829-cu ilin iyun ayında yaxşı silahlandırılmış ordu Həşdadsər dağında xürrəmilər üzərinə hücuma keçir. Ərəblər bu döyüşdə qələbə çalmağı, Babəkin iqamətgahının yerləşdiyi Bəzz qalasını ələ keçirməyi qarşılarına məqsəd qoyurlar. Lakin bu dəfə də niyyətləri baş tutmur. Ərəb ordusu üç istiqamətdən xürrəmilərin üzərinə hücum edir. Taktiki hiylə işlədən xürrəmilər qəflətən sağ və sol cinahlardan ərəb ordusu üzərinə əks zərbə endirirlər. Şiddətli döyüş ərəblərin əvvəlcə geri çəkilməsi, sonra isə qaçması ilə nəticələnir. Ərəbləri mühasirəyə alan xürrəmilər onların 30 min döyüşçüsünü məhv edirlər. Birinci Həşdadsər döyüşü kimi tarixə düşən bu savaşda ərəb sərkərdəsi Məhəmməd əl-Tusi öldürülür.





**(ardı gələn sayımızda)**

***Babək ƏBÜLFƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ